

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 90 (23.977)

17 may 2022-ci il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Respublikasının Prezidenti Rəcəb Təyyib Ərdoğanın dəvəti ilə mayın 14-də qardaş ölkəyə işgüzar səfər edib. Dövlət başçıları Rizə-Artvin Hava Limanının açılış mərasimində iştirak ediblər. Yeni hava limanına ilk dəfə göyərtələrində Türkiyə Prezidenti Rəcəb Təyyib Ərdoğanın və Azərbaycan Prezidenti İlham Əliyevin olduqları təyyarələr eniş edib.

Dövlət başçıları arasında keçirilən görüşdə siyasi əlaqələrin yüksək səviyyədə olduğu qeyd edilib, bu baxımdan Şuşa Bəyannaməsinin önəmi xüsusi vurğulanıb. Söhbət zamanı postmünaqişə dövrü, Azərbaycan ilə Ermənistan və Türkiyə ilə Ermənistan arasında əlaqələrin normallaşdırılması ilə bağlı fikir mübadiləsi aparılıb. Rizə-Artvin Hava Limanının təntənəli açılış mərasimində dövlət başçıları çıxış ediblər. Sonra Rizə-Artvin Hava Limanının açılışını bildirən lent kəsilib. Mayın 14-də Prezident İlham Əliyevin yolasalma mərasimi olub.

***

Prezident İlham Əliyev mayın 16-da Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) ölkəmizdəki səfirliyində olub, görkəmli dövlət xadimi, Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Xəlifə bin Zayed Al Nəhyanın vəfatı ilə əlaqədar başsağlığı verib.

***

Azərbaycan Respublikasının Prezidenti həmin gün Özbəkistan Respublikası Ali Məclisinin Qanunvericilik Palatasının sədri Nurdinjon İsmoilovun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

## “Naxçıvan” Əlahiddə Sərhəd Diviziyasının əsgər yataqxanası və idman kompleksi istifadəyə verilib





Sərhədlərin etibarlı mühafizəsi dövlət müstəqilliyinin əsas şərtlərindəndir. Bu gün muxtar respublikada ordu quruculuğu sahəsində həyata keçirilən tədbirlər “Naxçıvan” Əlahiddə Sərhəd Diviziyasını da



əhatə etmişdir. Dövlət qayğısı nəticəsində diviziyanın maddi-texniki bazası möhkəmləndirilmiş, bütün sərhəd zastavalarında şəxsi heyət üçün yüksək xidmət və məişət şəraiti yaradılmışdır.

Mayın 14-də “Naxçıvan” Əlahiddə Sərhəd Diviziyasında əsgər yataqxanası və idman kompleksi yenidənqurma işlərindən sonra təqdim olunmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov bu münasibətlə keçirilən tədbirdə iştirak etmişdir.

“Naxçıvan” Əlahiddə Sərhəd Diviziyasının komandiri, general-leytenant Niyaməddin Tağıyev Ali Məclisin Sədrinə raport vermişdir.

Sonra Ali Məclisin Sədri yaradılan şəraitlə maraqlanmışdır.

Məlumat verilmişdir ki, yenidənqurma işləri aparılan 320 yerlik əsgər yataqxanası zirzəmi ilə birlikdə 6 mərtəbədən ibarətdir. Mərkəzləşdirilmiş istilik və videonəzarət sistemi quraşdırılmış binada növbətçi və iş otağı, hər biri 32 yerlik 10 yataqxana, silah, sinif və məişət otaqları yerləşir. Diviziyanın idman kompleksi də yenidən qurulmuş, voleybol və basketbol yarışlarının keçirilməsi üçün böyük zal, kişilər üçün trenajor, qadınlar üçün fitnes zalı, 2 məşqçi otağı, qazanxana və texniki otaqlar istifadəyə verilmişdir. Kompleksə 18 idman aləti və aparatı qoyulmuşdur.

Hərbi hissənin sıra meydanında, hərbi şəhərcikdə, taktiki, atəş, ləpirçilik, mühəndis və idman şəhərciklərində, futbol meydançasında, yay sinif otaqlarında və manelər zolağında təmir işləri aparılmışdır. Bununla yanaşı, ərazidə 1600 metrlik suvarma xətti çəkilmiş, 1,5 hektar yaşıllıq salınmışdır.

Ali Məclisin Sədri diviziyada tikiləcək hamam-camaşırxana kompleksinin ərazisinə və layihəsinə də baxmışdır. Məlumat verilmişdir ki, zirzəmi ilə birlikdə 2 mərtəbədən ibarət olacaq binada hamam-camaşırxana, yuyucu maddələr və əşya anbarları, soyunub-geyinmə otaqları, bərbər, ayaqqabı təmiri, dərzi və digər xidməti otaqlar yerləşəcəkdir.



Ali Məclisin Sədri tikinti işlərinə başlanılması və ətrafda yaşıllıqların salınması barədə tapşırıqlar vermişdir.

“Naxçıvan” Əlahiddə Sərhəd Diviziyasının komandiri, general-leytenant Niyaməddin

Ardı 2-ci səhifədə





Tağıyev diviziyada aparılan yenidənqurma işlərinə və sərhədçilərə göstərilən diqqət və qayğıya görə şəxsi heyət adından Ali Məclisin Sədrinə minnətdarlıq etmiş, yaradılan şəraitdən səmərəli istifadə edərək bundan sonra da etimadı doğruldacaqlarına, sərhədlərimizin etibarlı mühafizəsi istiqamətində qüvvə və bacarıqlarını əsirgəməyəcəklərinə söz vermişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov ümummilli liderimiz Heydər Əliyevin rəhbərliyi ilə 1992-ci ildə keçmiş 41-ci sərhəd dəstəsinin əmlak və silah-sursatının tamamilə muxtar respublikaya təhvil verildiyini və Naxçıvan Sərhəd Dəstəsinin yaradıldığını bildirmiş, Azərbaycanın üçrəngli bayrağının qaldırıldığı ilk sərhəd dəstəsi kimi Naxçıvan Sərhəd Dəstəsinin keçdiyi yola nəzər salmışdır. Həmin dövrdə Ordubad rayonu ərazisində iki, Şərur rayonu ərazisində isə bir zastavanın Ermənistan sərhəd qoşunlarının tabeliyindən geri alındığını bildirən Ali Məclisin Sədri Naxçıvan Sərhəd Dəstəsinin inkişaf edərək "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasına çevrildiyini və muxtar respublikada dövlət sərhədlərimizin etibarlı mühafizə edildiyini diqqətə çatdırmışdır.

Ali Məclisin Sədri şəxsi heyətə təşəkkür etmiş, idman kompleksindən sərhədçi ailələrinin də istifadə etməsi, müxtəlif idman növləri üzrə daxili yarışların keçirilməsi barədə tapşırıqlar vermişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Naxçıvan Muxtar Respublikası Ali Məclisində görüş

Mayın 16-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov İran İslam Respublikasının İslam Şurası Məclisi sədrinin birinci müavini, İran-Azərbaycan Parlamentlərarası Dostluq Qrupunun həmsədri Əli Nikzadın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.



Ali Məclisin Sədri qonaqları Naxçıvan Muxtar Respublikasında görməkdən və Əli Nikzadın İran-Azərbaycan Parlamentlərarası Dostluq Qrupunun həmsədri seçilməsindən məmnunluğunu ifadə etmişdir. Ölkələrimiz arasında müxtəlif sahələrdə dostluq və əməkdaşlıq qruplarının, iqtisadi şuraların fəaliyyət göstərdiyini bildirən Ali Məclisin Sədri həmsədri olduğu Azərbaycan-İran Parlamentlərarası Əlaqələr üzrə İşçi Qrupunun fəaliyyəti və tərkibi barədə məlumat vermişdir.

Qrup üzvlərinin iki ölkə arasındakı münasibətlərin inkişafına dəstək verdiklərini qeyd edən Ali Məclisin Sədri Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə İran İslam Respublikası arasındakı əlaqələrə də diqqəti çəkmiş, muxtar respublikanın ali təhsil müəssisələrində 334 İran vətəndaşının təhsil aldığını, Naxçıvan Dövlət Universitetində Fars Dili Mərkəzinin fəaliyyət göstərdiyini bildirmişdir. Ali Məclisin Sədri qarşılıqlı iqtisadi əməkdaşlığa da toxunmuş, "Azərbaycan Respublikası və İran İslam Respublikası Hökuməti arasında İran İslam Respublikasının ərazisindən keçməklə Azərbaycan Respublikasının Şərqi Zəngəzur iqtisadi rayonu ilə Naxçıvan Muxtar Respublikası arasında yeni kommunikasiya bağlantılarının Anlaşma Memorandumu"na əsasən gələcəkdə ikitərəfli əlaqələrin daha da genişlənəcəyinə və yükdaşımanın həcminin daha da artacağına əminliyini ifadə etmişdir.

Səmimi qəbula görə minnətdarlıq edən və Naxçıvan Muxtar Respublikasında olmaqdan məmnunluğunu bildirən İran-Azərbaycan Parlamentlərarası Dostluq Qrupunun həmsədri Əli Nikzad rəhbərlik etdiyi nümayəndə heyətini təqdim etmiş və səfərin əhəmiyyətindən danışmışdır. Azərbaycanın torpaqlarını işğaldan azad etməsi münasibətilə təbriklərini çatdıran Əli Nikzad Vətən müharibəsi zamanı İslam Şura Məclisində azərbaycandilli nümayəndələrin bəyanat hazırladığını və Azərbaycanın dəstəkləndiyini bildirmiş, ölkələrimiz arasındakı münasibətlərdən bəhs etmişdir.

Görüşdə qarşılıqlı əlaqələrin inkişaf perspektivləri müzakirə olunmuşdur.

Sonda xatirə şəkli çəkdirilmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Ümummilli lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr olunmuş beynəlxalq şahmat turniri başa çatıb

Naxçıvan şəhərindəki Şahmat Mərkəzində keçirilən bağlanış mərasimində Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasının sədri, Azərbaycan Şahmat Federasiyasının vitse-prezidenti Seymur Talıbov çıxış edərək bildirib ki, ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr olunan şahmat üzrə beynəlxalq turnir başa çatır. Turnir ərzində izləyicilər bir-birindən maraqlı oyunların şahidi oldu. Keçirilən bu turnir muxtar respublikada şahmata və şahmatçılara göstərilən diqqət və qayğının bir nümunəsidir.

Şahmatçılar adından Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlığını bildirən Seymur Talıbov vurğulayıb ki, Naxçıvanda hər il şahmat turniri ilə bərabər, bir sıra beynəlxalq turnirlər, yarışlar da keçirilir. Şahmat Federasiyası da hər ay mütəmadi olaraq beynəlxalq turnirlər təşkil edir. Belə turnirlərin keçirilməsində məqsəd şahmatçıların inkişafı, onların oyun təcrübələrinin artırılmasıdır. Şahmatçıları qarşıda daha böyük yarış – oktyabr ayında keçiriləcək şahmat olimpiadası gözləyir. Hazırda bu yarışa hazırlıqlar gedir. Ən əsası isə gələn il ulu öndər Heydər Əliyevin anadan olmasının 100 illiyi ilə əlaqədar yüksək səviyyədə təşkil olunacaq beynəlxalq turnirdir. Şahmatçıların hər birini həmin turnirdə görmək məmnunluq doğuracaq.

Federasiya sədri turnirdə iştirak edən hər bir şahmatçıya gələcək karyeralarında uğurlar arzulayıb, qonaq iştirakçılara Naxçıvana gəldiklərinə görə təşəkkürünü bildirib.





Naxçıvan Muxtar Respublikasının gənclər və idman naziri Ramil Hacı turnir iştirakçılarını salamlayaraq qeyd edib ki, hər il may ayında muxtar respublikamızda ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr olunmuş müxtəlif turnirlər təşkil edilir. Bunlardan biri də beynəlxalq şahmat turniridir. Turnirdə dünyanın bir sıra güclü şahmatçılarının iştirakı yarışın nə qədər önəm kəsb etdiyinin göstəricisidir. Qalib və mükafatçıları təbrik edən Ramil Hacı yaradılan şəraitə görə Ali Məclis Sədrinə minnətdarlığını bildirib.

Çıxışlardan sonra qaliblər mükafatlandırılıb. İlk olaraq turnirdə veteran şahmatçıların qalibi Həsən Kərimov təltif edilib. Turnirdə 0-1500 reytinqli qalib şahmatçılar kateqoriyasında ilk üç pillədə Səadət Bəşirli, Ramazan Şərifov və Vahid Bəşirli qərarlaşıb. 1500-1700 reytinq əmsallı şahmatçılardan qalib adını Lala Hüseynova qazanıb. Eljan Abdülkərimli ikinci, Paşam Alizadə isə üçüncü olub. Əmsalları 1700-2000 olan zəka sahibləri arasında ən güclü şahmatçı Tunar Davudov olub. Murad Mehdizadə və Emin Novruzov isə müvafiq olaraq ikinci və üçüncü pillələri bölüşüblər. Beynəlxalq şahmat turnirinin qalibi adını isə 9 oyundan 8,5 xal toplayan azərbaycanlı beynəlxalq usta İsmayıl Şahəliyev qazanıb. Qrossmeyster Vüqar Rəsulov ikinci, iranlı FIDE ustası Əsgəri Morteza isə üçüncü olub. Şahin Lorparizangeneh, Kıvanc Haznədaroğlu, Sadiq Məmmədov, Fariz Əhmədov, İsmayıl Qurbanov, Toğrul Həsənzadə və Diyap Böyükaşık turniri ilk 10 pillədə başa vuraraq mükafatlandırılıblar. Mükafatları Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasının sədri, Azərbaycan Şahmat Federasiyasının vitse-prezidenti Seymur Talıbov, Naxçıvan Muxtar Respublikasının gənclər və idman naziri Ramil Hacı təqdim ediblər. Sonda beynəlxalq şahmat turnirinin qalibi, beynəlxalq usta İsmayıl Şahəliyev çıxış edərək turnirin təşkilatçılarına, Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasının sədrinə minnətdarlığını bildirib.

***

Ümummilli lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr olunmuş beynəlxalq şahmat turnirinin qalibi, azərbaycanlı beynəlxalq usta İsmayıl Şahəliyevin



mükafatlandırılmadan sonra fikirlərini öyrəndik: "Çox möhtəşəm turnir oldu. Həmişəki kimi, yenə də Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyası yüksək səviyyədə turnir təşkil etmişdir. Belə gözəl şahmat turniri təşkil edib şahmatçıları bir araya gətirdiyinə görə bir daha federasiyaya minnətdarlığımı bildirirəm. Şadam ki, belə böyük turnirdə mübarizə apardım və qalib adını qazandım. Gələcəkdə belə turnirlərdə hər zaman iştirak etmək istəyirəm. Mənə dəstək olduqlarına görə məşqçi-müəllimimə minnətdarlığımı bildirirəm. Ümid edirəm ki, gələcəkdə bu tipli yarışlar daha çox olacaq".

İsmayıl Şahəliyevdən keçirdiyi oyunlar barədə də fikrini öyrəndik: "Son tura qədər turnir gərgin mübarizə şəraitində keçdi. Son turda turnirin qalibi olmaq üçün mütləq qələbə qazanmalı idim, yoxsa heç-heçə etsə idim, bu mənim üçün risk idi. Çünki xallar bərabər olacaqdı və reytinqə görə qalib müəyyənləşəcəkdi. Son turda qalib gəldim. 6-cı turdan sonra oyunlar daha da çətinləşdi. Xüsusilə Vüqar Rəsulovla oyunda taktiki heç-heçə etdim və düşünürəm ki, bu, ən düzgün qərar idi. Naxçıvanlı şahmatçılardan Sadiq Məmmədovla da görüşüm gərgin mübarizə şəraitində keçdi".

**Ceyhun MƏMMƏDOV**

# Telman Əliyev: “Əminəm ki, Azərbaycanın digər regionlarının sahibkarları naxçıvanlı həmkarlarından öyrənib, yenilikləri, innovasiyanı öz şirkətlərində tətbiq edəcəklər”



*“Caspian Energy Club”un nümayəndələri muxtar respublikada səfərdə olub. Səfər çərçivəsində qonaqlar Naxçıvan Biznes Mərkəzində Azərbaycanın, o cümlədən Naxçıvan Muxtar Respublikasının bir sıra sahibkarlıq subyektlərinin nümayəndələri ilə görüşüblər.*

Sahibkarlarla görüşdə “Caspian Energy Club”un idarə heyətinin sədri, baş icraçı direktor Telman Əliyev Naxçıvanın sənaye, kənd təsərrüfatı və logistika potensialına malik, sürətlə inkişaf edən diyar olduğunu diqqətə çatdırıb. Təmsil etdiyi qurum barədə də ətraflı məlumat verən baş icraçı direktor bildirib ki, “Caspian Energy Club” Xəzər, Qara dəniz və Baltikyanı region dövlətlərinin ərazisində fəaliyyət göstərən dünyanın 50 ölkəsindən 5 mindən çox şirkət və təşkilatı birləşdirən iri və dinamik inkişaf edən regional təşkilatdır. 2002-ci ildən fəaliyyət göstərən qurumun məqsədi dövlət qurumları ilə sahibkarlar arasında ünsiyyət yaratmaq və sahibkarların problem və təkliflərini dövlət təşkilatları ilə müzakirə etmək, bununla bərabər, təcrübə və kommunikasiya platforması qurmaqdan ibarətdir. Ölkənin digər regionlarında fəaliyyət göstərən klub üzvlərinin Naxçıvana səfəri də məhz elə həmin məqsədə, təcrübələrin öyrənilməsinə və fəaliyyətlərində tətbiqinə yönəlib. Bu görüşlərin mütəmadi olaraq davam etdirilməsi nəzərdə tutulur. Bu da digər regionlardakı sahibkarlıq subyektlərinin muxtar respublikada göstərilən xidmətlərlə tanışlığında mühüm rol oynayır.

“Caspian Energy Club”un Naxçıvan iqtisadi rayonu üzrə rəhbəri, “Naxçıvanbank” Açıq Səhmdar Cəmiyyətinin müşahidə şurasının sədri Əsədulla İsgəndərov çıxışında vurğulayıb ki, 2008-ci ildən etibarən “Naxçıvanbank” Açıq Səhmdar Cəmiyyəti muxtar respublika sahibkarlarına müxtəlif maliyyə xidmətləri göstərir. Həmin xidmətlərə müxtəlif təyinatlı və şərtlərlə verilən kreditlər, xüsusilə kredit xətləri, kooperativ kreditlər, kənd təsərrüfatı kreditləri, akreditiv bank qarantiyaları, ticarət və ixrac əməliyyatlarının maliyyələşdirilməsi, kiçik və orta biznesə verilən kreditlər və region üzrə kənd əhalisinin fərdi məşğuliyyətini təşkil etməsi üçün ailə təsərrüfatı kreditləri aiddir. Hazırda bankın kredit portfeli 161 milyon 284 min manat təşkil edir ki, bunun 31 faizi sənaye sahəsinə verilən kreditlərdir. Bankın əsas məqsədi ölkə iqtisadiyyatına, kənd təsərrüfatının inkişafına dəstək olmaq, idxal asılılığını azaldan biznesləri və ixracyönümlü sahibkarlığı maliyyələşdirməkdir. 2022-ci ilin Naxçıvan Muxtar Respublikasında “Sənaye ili” elan olunması bu sahədə işləri daha da genişləndirib, sənayeləşməni sürətləndirib. “Caspian Energy Club”la yaradılan əlaqə və inkişaf kluba üzv olan sahibkarların diqqətini cəlb edib, muxtar respublika iqtisadiyyatına maraq yaradıb.



Sonra Azərbaycanın digər regionlarının və Naxçıvanın bir sıra sahibkarlıq subyektlərinin nümayəndələri təmsil etdikləri şirkətlər barədə məlumat verib, təcrübələrini paylaşıblar.

Sonda “Caspian Energy Club”un üzvləri, ölkədə fəaliyyət göstərən sahibkarlıq subyektlərinin nümayəndələri Naxçıvan Biznes Mərkəzi ilə tanış olublar. Məlumat verilib ki, mərkəzdə muxtar respublikada istehsal olunan 55 sahibkarlıq subyektinin 102 müəssisəsi tərəfindən 171 adda 1330 çeşiddə məhsul nümayiş olunur. İxrac potensialı yüksək olan istehsal məhsulları sahibkarların marağına səbəb olub. Naxçıvan Muxtar Respublikasında səfərdə olan qonaqlara “Badamlı” Mineral Sular Zavodunun və “Naxçıvanbank” Açıq Səhmdar Cəmiyyətinin hədiyyələri də təqdim olunub.

“Caspian Energy Club”un idarə heyətinin sədri, baş icraçı direktor Telman Əliyev səfərin məqsədi və Naxçıvan Muxtar Respublika iqtisadiyyatının inkişafı ilə bağlı fikirlərini “Şərq qapısı” qəzeti ilə bölüşüb:

– Naxçıvan Muxtar Respublikasına səfərlərin əsas məqsədi dialoqdan başqa həm də burada istehsal olunan məhsulları “Caspian Energy Club”un dünyanın 50 ölkəsində olan şirkət və təşkilatlarına tanıtmaq, xarici bazarlara çıxartmaqdır. Çalışacağıq Naxçıvanda fəaliyyət göstərən sahibkarlar üçün seminarlar, treninqlər, mütəmadi olaraq biznes forumlar təşkil edək. Bütün səfərlərdə ən maraqlı məqam odur ki, buraya ilk dəfə gələn insanlar Naxçıvanı sevirlər, istehsal olunan məhsullarla yaxından maraqlanırlar. Bu gün muxtar respublikada çox keyfiyyətli məhsullar istehsal olunur. Əminəm ki, Azərbaycanın digər regionlarının sahibkarları naxçıvanlı həmkarlarından öyrənib, yenilikləri, innovasiyanı öz şirkətlərində tətbiq edəcəklər.

**✍ Nail ƏSGƏROV**

*Əlahiddə Ümumqoşun Orduda bir qrup zabitin təkmilləşdirmə kursunu uğurla başa vuraraq yeni vəzifələrə təyin olunması münasibətilə buraxılış mərasimi keçirilib. Mərasimdə əvvəlcə şəhidlərimizin əziz xatirəsi yad edilib və Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.*

# Növbəti zabit heyətinin təkmilləşdirilməsi kursu başa çatıb



Polkovnik Mahmud Əmirov çıxışında bildirib ki, kurs zamanı keçirilən məşğələlərdə əsas diqqət ordumuzun arsenalında olan ən müasir silah və hərbi texnikaların dərindən mənimsənilməsinə və Vətən müharibəsində qazanılmış təcrübənin öyrənilməsinə yönəldilib.

Mayor Elvin Qurbani məzunlar adından çıxış edərək qeyd edib ki, zabit və komandir heyətinin peşəkarlıq səviyyəsi, istənilən döyüş tapşırığını yerinə yetirmək qabiliyyəti ordunun gücünü müəyyən edən əsas amillərdəndir. Bu baxımdan peşəkarlığın artırılması üçün təşkil olunan zabit heyətinin təkmilləşdirilməsi kursu mühüm əhəmiyyətə malikdir. Kurs müddətində əldə edilən bilik və bacarıqlar tabelikdə olan şəxsi heyətin döyüş, ictimai-siyasi və mənəvi-psixoloji hazırlıqlarının artırılmasında tətbiq ediləcək.

Mərasimdə Əlahiddə Ümumqoşun Ordu komandanı, general-polkovnik Kərəm Mustafayev kursu müvəffəqiyyətlə bitirən zabitləri təbrik edərək bildirib ki, ulu öndər Heydər Əliyevin ordu quruculuğu siyasətini uğurla davam və inkişaf etdirən Prezidentimiz cənab İlham Əliyevin diqqət və qayğısı sayəsində hərbçilərin peşəkarlığının artırılması, şəxsi heyətin döyüş ruhunun və mənəvi-psixoloji hazırlığının yüksəldilməsi, Silahlı Qüvvələrimizin ən müasir silah və texnika ilə təchizatı daim ön planda saxlanılır.

Qeyd edilib ki, ölkəmizin dinamik inkişafı Əlahiddə Ümumqoşun Ordunun da döyüş arsenalının ən müasir silah və texnika ilə təminatına, bütün parametrlər üzrə müasir standartlar səviyyəsinə yüksəlməsinə şərait yaradıb. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun diqqət və qayğısı sayəsində hərbi infrastrukturun müasirləşdirilməsi, şəxsi heyətin nümunəvi xidməti və döyüş qabiliyyətinin artırılması üçün mühüm işlər görülür. Peşəkar hərbçilərin yetişdirilməsi məqsədilə Əlahiddə Ümumqoşun Orduda təşkil edilən kurslar ordu quruculuğu istiqamətində görülən işlərin məntiqi davamıdır. Heç şübhəsiz ki, bu gün kursu uğurla başa vuran zabitlərimiz peşəkarlıqları nəticəsində onlara etibar olunan hər bir vəzifənin öhdəsindən layiqincə gələcəklər.

Çıxışların ardından məzunlara sertifikat və hədiyyələr təqdim edilib. Kurs birincisi xatirə lövhəsinə buraxılış emblemini vurub və məzunların yeni vəzifələrə təyin olunmaları ilə bağlı əmr mərasim iştirakçılarına çatdırılıb.

Əmr oxunduqdan sonra məzunların tribuna önündən təntənəli keçidi olub və xatirə şəkli çəkdirilib. Beləliklə, kursları uğurla bitirən zabitlər yeni məsuliyyətli vəzifələrə təyin olunublar.

**Kənan CƏLİLOV**

# Naxçıvan Dövlət Universiteti dünya universitetləri sıralamasında irəliləyib



Bu günlərdə “Times Higher Education” 2022-ci il üçün “THE Impact Ranking” reytinq siyahısını açıqlayıb. Ötən il olduğu kimi, bu il də Naxçıvan Dövlət Universiteti dünya universitetləri sıralamasında yer alıb. Universitetin elm strategiyası və müəyyən olunmuş məqsədlərə doğru tərəfdaşlıq, qabaqcıl təcrübələrin təşviqi və təbliğatı bu uğurda mühüm rol oynamışdır. Həmçinin bu sıralamada universitetin keyfiyyət göstəriciləri, beynəlxalq əlaqələri, əcnəbi tələbələrin sayı, alimlərin elmi nəşrləri bu uğurların davamlılığını təmin etməkdədir.

Universitetin “Times Higer Education” ilə başlayan qısa tarixli əməkdaşlığından sonra universitetin davamlı inkişaf dinamikası sürətlə artmışdır.

Qeyd edək ki, respublikamızdan Naxçıvan Dövlət Universiteti ilə yanaşı, 6 universitet də (Bakı Dövlət Universiteti, Azərbaycan Dövlət İqtisad Universiteti, Azərbaycan Memarlıq və İnşaat Universiteti, Bakı Mühəndislik Universiteti, Xəzər Universiteti və Qərbi Kaspi Universiteti) bu siyahıda yer alıb.

Mərkəzi Böyük Britaniyada yerləşən “Times Higer Education” universitetlərin beynəlxalq nüfuzunu müəyyənləşdirən dünyanın ən böyük reytinq şirkətidir. Bu şirkət dünyanın 93 ölkəsindən 2500 universitet ilə əməkdaşlıq edir və ali təhsil məkanında rəqabətliliyi formalaşdırır. Bu sistem üzərindən universitetlərin dünyada yeri, seçimi, keyfiyyəti və tanınması təmin olunur. Şirkətin sıralamasında yer alan universitetlərin diplomlarının xarici ölklərdə tanınması prosesi avtomatlaşdırılır. Sıralama cədvəlinin hazırlanmasında 4 sahə (tədqiqat, idarəetmə, təbliğat və tədris) üzrə universitetlərin göstəricilərindən istifadə edilir.

***Naxçıvan Dövlət Universitetinin Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsi***

# Növbəti imtahanlar keçirilib



Mayın 15-də Dövlət İmtahan Mərkəzi əvvəlki illərin məzunları üçün 9 illik təhsil bazasında kolleclərə qəbul imtahanı, müsabiqədə buraxılış imtahanında verdiyi xarici dildən fərqli dil üzrə iştirak etmək istəyən cari ilin məzunları üçün əlavə xarici dil imtahanı, qəbul imtahanını buraxılış imtahanında verdiyi dildən fərqli dil üzrə vermək istəyən cari ilin məzunları üçün əlavə tədris dili imtahanı, aprel-may aylarında keçirilmiş buraxılış imtahanlarında müxtəlif səbəblərdən iştirak edə bilməmiş və barəsində mərkəzə müraciət edilmiş cari ilin IX sinif şagirdləri üçün buraxılış imtahanı, eksternat qaydasında IX sinif üzrə yekun attestasiyada iştirak etmək istəyən şəxslər üçün buraxılış imtahanı, buraxılış imtahanlarında müxtəlif səbəblərdən iştirak edə bilməmiş və barəsində mərkəzə müraciət edilmiş əvvəlki illərin IX sinif məzunları üçün buraxılış imtahanı keçirib. İmtahanlar Bakı, Şəki, Lənkəran, Gəncə, Sumqayıt, Mingəçevir, Şirvan şəhərlərində, Abşeron, Şəmkir, Bərdə, Sabirabad, Göyçay, Cəlilabad, Xaçmaz rayonlarında və Naxçıvan Muxtar Respublikasında təşkil olunub.

Ümumilikdə, imtahanların idarə olunmasına 59 ümumi imtahan rəhbəri, 174 imtahan rəhbəri, 1332 nəzarətçi-müəllim, 132 buraxılış rejimi əməkdaşı və 59 bina nümayəndəsi ayrılıb. İmtahanda 14 min 112 nəfər iştirak edib.

Naxçıvan Muxtar Respublikasında imtahanlar 5, 14 nömrəli və Heydər Əliyev adına tam orta məktəblərin binalarında təşkil olunub. 783 nəfərin iştirak etdiyi imtahan 65 zalda keçirilib və onun idarə olunması üçün 9 rəhbər, 78 nəzarətçi ayrılıb. İmtahan bir mərhələdə keçirilib və 3 saat davam edib.

İmtahan nəticələrinin yaxın 3 həftə ərzində elan olunması nəzərdə tutulur.

**✍ Güntac ŞAHMƏMMƏDLİ**

*May ayının 14-də muxtar respublikamızda ağacəkmə kampaniyası yüksək səviyyədə təşkil olunmuşdu.*

# Təbiətə qayğı göstərilir



Həmin gün Naxçıvan şəhərində sutəmizləyici qurğunun yaxınlığındakı sahədə yaşıllıqlara aqrotexniki qulluq göstərilmiş, bərpa məqsədilə 238 həmişəyaşıl ağac əkilmiş, ahıl vətəndaşın evində təmizlik işləri görülmüşdür.

Şərur rayonunda Yengicə-Kərimbəyli avtomobil yolunun kənarlarındakı yaşıllıqlara aqrotexniki qulluq göstərilmiş, qurumuş ağac budaqları kəsilmiş, təmizlik işləri aparılmışdır.

Həmin gün Babək rayonunda Babək-Nehrəm yolunun kənarlarında yaşıllıqlara aqrotexniki qulluq göstərilmiş, təmizlik işləri görülmüşdür.

Ordubad rayonunda Naxçıvan-Ordubad magistral yolu, Şəhriyar qəsəbə, Xanağa-Dırnıs-Pəzməri və Düylün-Üstüpü, Biləv kəndlərinə gedən yolların kənarlarında ağaclara aqrotexniki qulluq göstərilmişdir.

Culfa rayonunda yaşıllıqlara aqrotexniki qulluq göstərilmiş, suvarma işləri aparılmışdır.

Kəngərli rayonunda Naxçıvan-Sədərək magistral avtomobil yolunun Xok kəndi hissəsindəki və Çalxanqala kəndinə gedən yolun kənarlarındakı bağlara aqrotexniki qulluq göstərilmiş, idarə və müəssisələrin işçiləri ərazilərində təmizlik işləri aparmışlar.

Şahbuz rayonunda Şahbuz şəhər – Biçənək kənd avtomobil yolunun kənarlarında yaşıllıqlara aqrotexniki qulluq göstərilmiş, yol kənarları alaq otlarından təmizlənmişdir.

Sədərək rayonunda Heydərabad qəsəbəsindəki parkda, Bayraq Meydanının yaxınlığındakı 1 hektarlıq ərazidə, Dəmirçi və Qaraağac kəndlərində yaşıllıqlara aqrotexniki qulluq göstərilmiş, budama və ot biçini işləri görülmüşdür.

* * *



Ekologiya könüllüləri Uzunoba Su Anbarının ətrafında təmizlik aksiyası keçirib. Əvvəlcə könüllülər tədbirin təşkilatçıları tərəfindən ətraflı şəkildə məlumatlandırılıb və keçirilən təmizlik aksiyasının təbiətin mühafizəsi baxımından əhəmiyyətindən danışılıb.

Sonra aksiyaya start verilib. Zəruri sanitar ləvazimatlarla təmin olunan gənclər ərazidəki məişət tullantılarını toplayıb, ətrafda səliqə-sahman yaradıblar. Toplanılan tullantılar təmizlik maşınına təhvil verilib və əraziyə yeni təmizlik qutusu yerləşdirilib.

**Xəbərlər şöbəsi**

## Milli dəyərlərimizi öyrənək və yaşadaq

# Naxçıvanda əllə xalçatoxuma ənənəsi qadınlarımız tərəfindən yaşadılır

***Ölkəmizdə xalq tətbiqi sənətinin qollarından biri olan xalçaçılıq sənətinin kökü çox qədimlərə gedib çıxır. İstər təsərrüfat şəraiti, istərsə də təbii şərait burada xalçaçılığın inkişafına əlverişli imkanlar yaradıb, ta qədim zamanlardan toxunan xalçalar xalqımızın dünyagörüşünü, mədəniyyətini, məşğuliyyətini və həyat tərzini özündə yaşadıb. Azərbaycan xalçaçılıq sənəti tarixində özünəməxsus yeri və rolu olan Naxçıvan xalçaçılıq məktəbi də ənənəvi naxış və elementləri, zəngin rəng çalarları, orijinal kompozisiyaları ilə həmişə seçilib. Naxçıvan xalçaları, əsasən, Şahbuz, Şərur, habelə Culfa və Ordubadda toxunub. Tarixi mənbələrə istinadən deyə bilərik ki, hələ IX-X əsrlərdə öz xalça və zililəri ilə məşhur olan Naxçıvan XVI əsrdə xalçaçılığın həm bədii səviyyəsi, həm də istehsal həcminin artması baxımından öz inkişafının xüsusi mərhələsinə çatmış, burada toxunulan zərif və qəşəng xalçalar Yaxın Şərq və Avropa ölkələrində də yüksək qiymətləndirilmişdir.***

Bu gün də muxtar respublikamızda xalçaçılıq sənətinin qorunub yaşadılması, inkişafı diqqət mərkəzində saxlanılır. Göstərilən dövlət qayğısı bu işdə mühüm rol oynayır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasında Xalq yaradıcılığı günlərinin keçirilməsi haqqında" 2009-cu il 7 fevral tarixli Sərəncamı xalçaçılıq sənətinin qorunması və inkişafı, yeni elmi araşdırmaların aparılması üçün əsas olmuşdur. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 9 aprel tarixli Sərəncamı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasında xalça sənətinin qorunmasına və inkişaf etdirilməsinə dair 2018-2022-ci illər üçün Dövlət Proqramı" isə muxtar respublikada xalçaçılıq sahəsində maddi-mədəni irsin qorunması və davamlı inkişafın təmin edilməsində mühüm rol oynayır. Diyarımızda ötən il mayın 10-da Prezident cənab İlham Əliyevin iştirakı ilə "Azərxalça" Açıq Səhmdar Cəmiyyətinin Naxçıvan filialının açılması, ölkə başçısının 2018-ci



ilin 15 fevralında imzaladığı "Naxçıvan şəhərində xalça istehsalı emalatxanasının tikintisi, təchizatı və infrastrukturunun yaradılması ilə bağlı tədbirlər haqqında" Sərəncamına əsasən Naxçıvan Xalça İstehsalı Emalatxanası, Naxçıvan Regional Yun və Təbii Boyaq Bitkilərinin Tədarükü Məntəqəsinin fəaliyyətə başlaması, bu sahədə peşə təhsilinin dəstəklənməsi, əllə toxunmuş xalçaların reyestri sisteminin yaradılması, aparılan tədqiqatlar zamanı əldə edilən məlumatlar, yeni elmi nəşrlərin hazırlanması və digər tədbirlər xalça sənətinin yaşadılması və inkişafına təkan vermişdir.

2010-cu ildən yeni binada fəaliyyətə başlayan Naxçıvan Dövlət Xalça Muzeyi milli-mənəvi dəyərlərimizi özündə yaşadan Naxçıvan xalçalarının mühafizə edilməsində və bunların təbliğində mühüm rol oynayır. Muzeydən aldığımız məlumata görə, hazırda burada 3000-dən çox eksponat qorunub saxlanılır. Ziyarətçilərin daxil olduğu zalda isə 400-ə yaxın eksponat nümayiş etdirilir. Zalda nümayiş olunan eksponatlara xovlu-xovsuz xalçalar, məişət əşyaları, toxuculuq zamanı istifadə edilən alətlər aiddir. Ekspozisiyada ornamentli xalçalarla yanaşı, süjetli xalçalar da göz oxşayır. Bunlar içərisində xüsusilə seçilənləri isə ulu öndərimiz Heydər Əliyevə həsr edilən portret xalça, Azərbaycan Respublikasının siyasi-inzibati xəritəsinin əks olunduğu xalçadır. Muzeydə xalçaların toxunma tarixlərinə nəzər salsaq, 1800-cü ildən başlamış 2013-cü ilə qədər toxunan xalçaları görərik. Ötən il muzeyi 1900 nəfər əcnəbi qonaq ziyarət edib, bu qiymətli sənət nümunələrimiz onlarda böyük maraq doğurub. Sevindirici haldır ki, bu gün muxtar respublikamızda peşəkar xalçaçılarımız tərəfindən bu sənət yaşadılır. Bu mövzuda Naxçıvan Dövlət Xalça Muzeyinin xalçaçıları ilə həmsöhbət oluruq. ***Rübabə Əliyeva*** 1984-cü ildə Babək rayonunun Vayxır kəndində anadan olub. 9 ildir ki, Xalça Muzeyində tərtibatçı rəssam kimi fəaliyyət göstərir. Müsahibim deyir ki, 15 yaşından xalça toxuyur: – Kənddəki qonşumuz çox gözəl xalçalar toxuyurdu, mənə də öyrətdi. Sonra bu gün burada birgə çalışdığım Gülsüm xanım məni Naxçıvan şəhərinə gətirdi, bir müddət Naxçıvan Biznes Mərkəzində fəaliyyət göstərən Xalq Yaradıcılığı Emalatxanasında işlədim. Burada daha çox süjetli xalça toxuyuram. Qeyd edim ki, Azərbaycanda süjetli və mövzulu xalçaların toxunması qədim tarixə və zəngin ənənəyə malikdir. Əvvəllər rəssamlar xalçalar üzərində müxtəlif ov, savaş, eşq və məhəbbət, saray həyatına həsr olunmuş kompozisiyalar yaradırdılar. Bu xalçalar, bir qayda olaraq, şəkil kimi divardan asılmaqdan ötrü toxunur, onların toxunmasında yüksəkkeyfiyyətli yundan və zərif iplikdən istifadə edilirdi. Yüksək sıxlıq və zərif xov Naxçıvanda toxunan süjetli xalçaların əsas xüsusiyyəti idi. Xalçaların naxış-kompozisiyasında yerli əhalinin təsəvvürü, mifik görüşləri, inancları mühüm yer tuturdu. İndi mənim hazırladığım süjetli xalçalar üzərində Naxçıvan gözəli, Tıq-tıq xanım, dəvə karvanı, buta və sair yer alır.



Xalçanın toxunma üsulundan danışan müsahibim deyir ki, toxuma prosesi arğac ipinin əriş taylarının arasından keçirilməsi ilə başlanır, arğac ipi əriş taylarının arasından hissə-hissə, sağdan sola və əksinə olmaqla keçirildikcə kirkid vasitəsilə döyəclənib aşağı yatızdırılır. İlməni döyəcləyib bərkitmək məqsədilə xüsusi küjü (gücü) ipi işlənir, xovların ucu ilmə qayçısı ilə müvafiq uzunluqda xov saxlanılmaqla kəsilib bərabərləşdirilir. Xalçaların toxunuşu zamanı vurulan ilmələr (düyünlər), əsasən, simmetrik (türkbaf) və assimmetrik (farsbaf) adlanır. Simmetrik ilmə toxunuşu qüllabi ilməyə (düyünə) müasir xalça elmində verilən addır. Xalçaya axırıncı ilmələr vurulub toxuma işi yekunlaşdıqdan sonra xalçanı kəsmək üçün hazırlıq işləri aparılır. Sonra qayçı vasitəsilə əriş ipliklər kəsilir, hərdən bir arğac ipliklərin sökülməməsi üçün kəsilmiş erişlər düyünlənir. Xalça kəsildikdən sonra üzərindəki toz və ip qırıntıları təmizlənir. İndiyədək 50-yə yaxın böyükölçülü, eləcə də 50-dən çox kiçikölçülü xalça toxumuşam. Bu gün muxtar respublikamızda bu sənətin öyrənilməsi, yaşadılması üçün hər cür şərait mövcuddur. Toxuduğumuz xalçaları burada keçirilən sərgi-satış yarmarkalarında, festivallarda nümayiş etdirir, satışına nail oluruq. Onu da deyim ki, mənim əməyim dövlətimiz tərəfindən yüksək qiymətləndirilib. Ölkə Prezidentinin müvafiq Sərəncamı ilə 2018-ci ildə "Tərəqqi" medalı ilə təltif edilmişəm. Buna görə dövlətimizə minnətdaram.

***Gülsüm Kəngərli*** də uzun illərdir, bu sənət sahəsini yaşadanlardandır, xalçanın ustasıdır deyərdim. 50-dən çox yaşı olan bu xanım 9 yaşından xalça toxuyur. Müsahibimin dediklərindən: – Doğulub böyüdüyüm Vayxır kəndində bütün qışboyu, demək olar ki, hər evdə müxtəlif xalçalar toxunardı. Kəndimizdə Gülsüm nənənin 100-dən çox yaşı var idi, ancaq xalça toxumağından qalmırdı. Mən də bu sənət sahəsinin içərisində böyümüşəm. Böyük bacım, əl əməyi, göz nuru olan xalçalar toxuyur, onun işinə olan sevgisi məni də xalça toxumağı öyrənməyə həvəsləndirirdi. O vaxt qış sərt keçdiyi üçün pambıq iplərlə sıx, seyrək xalçalar toxunurdu. İndi toxunan xalçalardan bir də fərqi onda idi ki, xalçalar üzərində eskiz olmurdu. Bir qohumun, qonşunun evinə gedəndə orada toxunan xalçaya baxır, qeydlərimizi edir, eyni xalçanı evdə toxuyurduq. Ovaxtkı xalçalar üzərində müxtəlif gül rəsmləri, nəbati ornamentlər, naxış elementlərindən istifadə olunurdu. Məsələn, göl geniş yayılan naxış elementlərindən biri idi. Xalça sənətində gölü "medalyon", "xonça" da adlandırırlar. Üç gölə qədər olan xalçalar kiçikölçülü (bunlara "gölçə" də deyilir), dörddən çox olanlar isə böyükölçülü xalçalardır. O vaxtlar – 70-90-cı illərdə xalça kəsiləndə atamız-babamız xalça üzərinə pul qoyardı ki, bolluq, şirinlik olsun. Özü də həmin vaxt xalçanın kəsimini qonum-qonşu yığışıb bir yerdə edirdik. Və yaxud bir kənddə oğlan və qız doğulanda onların şərəfinə ayrı-ayrı naxışlı xalçalar toxunardı. Muxtar respublikada hər bir bölgədə xalçatoxuma ənənələri mövcud idi. Şahbuz soyuq yer olduğu üçün xalçanın xovunu az vururdular ki, xalça qalın olsun, Babək rayonu da eynilə. Düzən yerlərdə isə əksinə idi. Toxunan xalçalar xovlu və xovsuz olmaqla ikiyə ayrılırdı. Xovluya xalça, xalı, gəbə və sair, xovsuza isə palaz, kilim, cecim, zili, şəddə və sair daxil idi. Bu xalçalar naxışlarının incəliyi, rənglərinin zənginliyi ilə seçilirdi. Xalça toxunması zamanı iplərin boyanması əsas işlərdən biri idi. O vaxt müxtəlif bitkilərin yarpaq, çiçək, meyvə, qabıq və digər hissələrindən sənətkarlıqla boyaq məhsulları hazırlayıb yun, ipək və pambıq iplikların boyanmasında istifadə edirdilər. Bu bitkilərə boyaqotu, sarıçiçək, yabanı çiçəklər, ayı çaşırı və digərlərini misal göstərə bilərəm. Son vaxtlarda kimyəvi rənglərdən daha çox istifadə olunur. Bir müddət mən də evdə ip boyayırdım. Bu iplər də öz möhkəmliyi, rəng müxtəlifliyi ilə seçilirdi. Lakin vaxt keçib hər şey inkişaf etdikcə biz də bu işdə yeni üsullar axtarıb tapmağa çalışırdıq. 1990-cı ildə Vayxır kəndində xalçaçılıq sexi açıldı. Üç-dörd il orada usta kimi fəaliyyət göstərdim. Ondan sonra kəndimizdə, eləcə də Naxçıvanda xalçaçılıq sexləri fəaliyyət göstərməyə başladı. 1999-cu ildə Naxçıvan Dövlət Xalça Muzeyinin direktoru, mərhum sənətkarımız Arif Qədimov bu sənətdəki qabiliyyətimi görüb, məni Naxçıvana gətirdi. 1999-cu ilin oktyabr ayında Xan sarayında (o vaxt Xalça Muzeyi həmin sarayda fəaliyyət göstərirdi) toxuduğum xalçalar ilk dəfə orada təşkil edilən sərgidə nümayiş olundu. Ümummilli liderimiz Heydər Əliyev də həmin tədbirdə iştirak edirdi. Ulu öndər naxçıvanlı qadınların əl işlərini çox bəyəndi. O gündən sonra məni Naxçıvan Dövlət Xalça Muzeyinə işə dəvət etdilər. 2000-ci ildən burada çalışıram. Eyni zamanda Naxçıvan Regional Peşə Tədris Mərkəzində müdavimlərə xalçaçılığın sirlərini öyrədirəm. İndi bir çox ölkələrdə xalçalar maşında toxunur. Sevindiricidir ki, Naxçıvanda əllə xalçatoxuma ənənəsi yaşadılır və inkişaf etdirilir. Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən həyata keçirilən "Ənənəni qoruyaq, evdə xalça toxuyaq" layihəsinə də cəlb edilmişəm. Muxtar respublikanın kəndlərinə gedir, bu sənətlə həvəskar və ya peşəkar məşğul olan xanımlarımızla görüşürük. Bu layihə əllə xalçatoxuma sənəti sahəsində unudulmaqda olan ənənələrin yaşadılmasında, xalça çeşnilərinin bərpa və inkişaf etdirilməsində mühüm rol oynayır. Həmişə deyirəm ki, qadınlarımıza hər hansı bir sənət sahəsini öyrənmək mütləq lazımdır. Həm o sənəti yaşatmaq, həm də ki məşğulluqlarını təmin etmək baxımından bu, çox vacibdir. Xalçaçılıq sənəti ilə məşğul olmaq üçün həvəs və çalışqanlıqla yanaşı, iradə, cəsarət də lazımdır ki, sona qədər işi apara biləsən. Xalça toxuyanda vurduğum ilmələrin səsi bir musiqi melodiyası kimi ruhumu təzələyir, mənə mənəvi qida olur.

Müsahibim deyir ki, muxtar respublika rəhbəri hər bir sənət sahəsi kimi xalçaçılığın da inkişafını daim diqqət mərkəzində saxlayır: – Diyarımızda sənətə, sənətkarlara dəyər verilir, xalçaçılarımızın əməyi yüksək qiymətləndirilir. Xalçaçılıq sahəsindəki fəaliyyətimə görə 2015-ci ildə "Rəşadətli əməyə görə" nişanı, 2017-ci ildə ölkə başçısının müvafiq Sərəncamı ilə "Əməkdar mədəniyyət işçisi" fəxri adı ilə təltif edilmişəm. Bu bizə fəaliyyətimizi davam etdirməyə əlavə stimul verir.

*Gəlinən qənaət isə odur ki, muxtar respublikamızda xalçaçılığın yaşadılması, təbliği, gələcək nəsillərə ötürülməsi istiqamətində dövlət səviyyəsində həyata keçirilən tədbirlərə milli-mədəni dəyərlərimizə ən böyük diqqət və ehtiramın ifadəsidir.*

✍ **Güntac ŞAHMƏMMƏDLİ**

## Yeniyetmə atletimiz Azərbaycan birincisi olub




Şüvəlan qəsəbəsindəki Ağır Atletika Akademiyasının yarış zalında 15 və 17 yaşadək yeniyetmə oğlan və qızlar arasında ağır atletika üzrə ölkə birinciliyi keçirilib. Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi və Ağır Atletika Federasiyasının birgə təşkil etdiyi yarışda ölkənin bütün bölgələrindən 150-yə yaxın atlet öz qüvvəsini sınayıb.

Məşqçi Şəfi Hüseynovun rəhbərliyi ilə Naxçıvan Atletika Federasiyasının idmançısı Həsən Babayev yarışa qatılmaqla medallar uğrunda mübarizə aparıb. Təmsilçimiz etimadı doğruldaraq mükafatçılar sırasına düşməyi bacarıb. O, yaşı 15-ə qədər olan atletlərin yarışında 89 kiloqram çəki dərəcəsi üzrə qızıl medal qazanıb. İdmançımız birdən 94 kiloqram, təkanla qaldırmada isə 122 kiloqramlıq çəkini ram edərək toplamda 216 kiloqram nəticə ilə öz çəkisində ölkə birincisi olub. Yeniyetmə atletimiz bu göstərici ilə ötən ay kişilər və qadınlar arasında keçirilən Azərbaycan çempionatındakı nəticəsini də geri qoyub. Həmin yarışda toplamda 195 kiloqram nəticəyə nail olan Həsən (85+110=) 4-cü yerə layiq görülmüşdü.

Qeyd edək ki, ötən ay yeniyetmələrdən ibarət Azərbaycan yığma komandasına dəvət alan Həsən Babayev qarşıdakı təlim-məşq toplanışlarında iştirak edəcək. Bu proses 2022-ci ilin avqust ayında Polşada keçiriləcək Avropa çempionatına hazırlıq məqsədi daşıyır.

## "Araz-Naxçıvan" finalda



Futbol üzrə Azərbaycan Region Liqasında finalçılar müəyyənləşib. ASK Arenada liqanın ikinci yarımfinal matçında "Araz-Naxçıvan" və "Xan Lənkəran" komandaları üz-üzə gəlib. Matç muxtar respublika təmsilçisinin 2-1 hesablı qələbəsi ilə yekunlaşıb. "Ağ-qırmızılar" bu qələbə ilə final görüşünə vəsiqə əldə ediblər. Komandamız tərəfindən vurulan qolların müəllifləri Fərid Cəfərli və Orxan Əliyev olub.

Həlledici final oyununda rəqib "Cəbrayıl" komandası olacaq. Cəbrayıllılar "Qusar"a qarşı qələbə sayəsində bu uğura nail olublar.

Qeyd edək ki, Region Liqasının finalı mayın 20-də saat $16^{00}$-da Şamaxı şəhər stadionunda keçiriləcək.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

### Bildiriş

Naxçıvan Dövlət Universiteti 2021/2022-ci tədris ilinin yaz sessiyası ilə əlaqədar qiyabiçi tələbələrin nəzərinə çatdırır:

1. Universitetin qiyabi şöbəsinin bütün ixtisaslarında yaz sessiyası 1 iyun 2022-ci il tarixdən başlayır və 15-20 iş günü davam edir.
2. Bütün qiyabiçi tələbələrin sessiyada iştirakı zəruridir.

***Rektorluq***

ŞƏRQ qapısı
Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575
*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Səbuhi Həsənov
*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*
Tiraj: 1500. Sifariş № 421